# “Heydər Əliyev siyasəti: tarix və müasirlik”

**AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin müəllifliyi, akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə yeni nəşr olunmuş “Heydər Əliyev siyasəti: tarix və müasirlik” monoqrafiyasında 30 ildən artıq bir dövrdə əbədiyaşar ideyaları və müdrik siyasəti ilə Azərbaycanın uğurlarının memarı olmuş dahi şəxsiyyətin böyüklüyündən, fenomen keyfiyyətlərindən söhbət açılır.**

AMEA Naxçıvan Bölməsində bu fundamental tədqiqatın geniş müzakirəsi və təqdimatı keçirilib. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli 2023-cü il Azərbaycan Respublikasında “Heydər Əliyev İli” ilə əlaqədar keçirilən silsilə tədbirlərlə yanaşı, ümummilli liderin siyasi irsinin müxtəlif kitab və monoqrafiyalara da mövzu olduğunu deyib. Alim qeyd edib ki, “Heydər Əliyev siyasəti: tarix və müasirlik” monoqrafiyası ulu öndər Heydər Əliyevin həyatının və siyasi irsinin tədqiqinə həsr olunub. Alim monoqrafiyada ümummilli liderin siyasi fəaliyyətini tarix və müasirlik nöqteyi-nəzərindən araşdırmaya cəlb edib.






Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev “Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş tədqiqat əsəri”, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov “Tarix və müasirlik kontekstində Heydər Əliyev siyasəti” mövzusunda məruzə ediblər.

Məruzə və çıxışlarda bildirilib ki, “Heydər Əliyev İli”nə dəyərli elmi töhfələrdən sayılan “Heydər Əliyev siyasəti: tarix və müasirlik” adlı monoqrafiyada akademik İsmayıl Hacıyev Azərbaycanın müasir dövlətçilik tarixində baş verən hadisələri, ümummilli liderimizin böyük, qüdrətli, yenilməz Azərbaycan yaratması prosesini fundamental şəkildə geniş oxucu kütləsinə çatdırır. Ulu öndərin dövlətçilik təlimi və onun tərkib hissələrinin önə çəkildiyi kitabın girişində bildirilir: “Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

“Heydər Əliyev şəxsiyyəti və siyasəti” adlanan birinci fəsildə müəllif xalqımızın tarixində həmişəlik qalan, onu dünyada tanıdan görkəmli dövlət xadimini “öyrənilməmiş dünyaya” bənzədir, Azərbaycan dövlətinin memarı və dünya miqyaslı siyasətçinin siyasi fəaliyyətindəki Türk dünyası məsələlərindən danışır, türk xalqının iki dahi şəxsiyyəti – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin tarixi missiyalarındakı oxşarlıqları geniş təhlil süzgəcindən keçirir.

Monoqrafiyanın “Heydər Əliyevin Azərbaycana qayıdışı. Naxçıvanın milli-azadlıq hərəkatının mərkəzinə çevrilməsi. Müstəqilliyə doğru ilk dönüş” sərlövhəli fəslində ümummilli liderin 1990-cı il iyul ayında Azərbaycana qayıdışından, Naxçıvanın milli azadlıq hərəkatının mərkəzinə çevrilməsindən, ölkəmizin müstəqilliyə doğru böyük dönüşündən bəhs edilir.

Təqdimat mərasiminin sonunda monoqrafiyanın müəllifi, akademik İsmayıl Hacıyev tədqiqat üzərində yaradıcılıq işindən danışıb, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 17 may.- S.5.